**525-ci qəzet.-** 2009.- 26 sentyabr.- S.26.

## Füzuli şeirinin rüknləri

## ÜÇÜNCÜ YAZI – QƏM

**Gülşən Əliyeva – KƏNGƏRLİ**

Füzulinin qəm olmayan şeiri yoxdur, çünki Füzulinin eşq olmayan şeiri yoxdur, ol səbəbdən ki, Füzulinin hüsn olmayan şeiri yoxdur. Ona görə belədir ki, Füzuli ən böyük şair idi, "Dərd isə şairliyin əsas sərmayəsidir" (Füzuli). Əslində qəm insan xislətinə ən doğma bir hissdir. İnsan dünyaya ağlaya-ağlaya gəlir. Bunun fiziki-tibbi səbəbi var: körpə dünyaya gələndə ciyərlərinə hava dolub onu incidir və o ağlamağa başlayır. Həkimlər, hətta, ağlamayan uşağı sağlam hesab etmirlər. Deməli, insanın dünya ilə ilk tanışlığı ağrıdan, göz yaşından başlanır. Füzulinin poeziyasında qəm hüsnün və eşqin bəhrəsi kimi tərənnüm olunur. Ümumiyyətlə, Füzuli qəmi onun şair taleyi ilə bağlıdır və Füzuli şeirin estetik gücünü qəmin çoxluğunda görürdü.

Füzulinin ən kamil obrazı - Məcnun dünyaya gələndə şair bu gəlişin mahiyyətini belə mənalandırır:

...Söylərdi ki, ey cəfaçı dünya!
Bildim qəmini sənin ki, çoxdur,
Qəm çəkməyə bir hərif yoxdur.
Gəldim ki, olam qəmin hərifi
Gəl, təcrübə eylə mən zəifi!

Beləliklə, Məcnun dünyanın qəmini azaltmaq üçün dünyaya gəlib, ilan gülləyə gedən kimi o da qəmə doğru gedir. "Qəmin hərifi olmaq!" - bu Məcnunun arzusu, şair Füzulinin estetik idealıdır. Həqiqətən də əsərdə Füzulinin lirik qəhrəmanı Qeysdən Məcnuna qədər çətin, sufiyanə bir yol keçir. Qeys bu yolu qəm işığında keçir.

Füzulinin lirik qəhrəmanı öz qəmi ilə fəxr edir, bu qəmin qüdrətinə inanır, çünki "hüsni-əzəlidən" və "eşqi əbədidən" güc almışdı:

Olsaydı məndəki qəm Fərhadi-mübtəladə,
Bir ah ilə verərdi min Bisütunu badə.

Füzuli poeziyasında qəmin gözəlliyi onun gizli qalmasında, faş edilməməsindədir. Qəmi biruzə vermək, əfqan etmək aşiqə eyib gətirən bir əlamətdir.

Könüldə min qəmim vardır ki,
 pünhan eyləmək olmaz,
Bu həm bir qəm ki, el tənindən
 əfqan eyləmək olmaz.

Qəmin bir ifadə forması var, bu da Ahdır: "Ah eylədiyim sərvi-xuramanın üçündür". Bu ahla Füzuli (onun "mən"inin daşıyıcısı olan lirik qəhrəman!) nələr eləmir:

Pərişan xəlqi-aləm ahu əfqan
 etdiyimdəndir,
Pərişan olduğum xəlqi pərişan
 etdiyimdəndir
Deyil bihudə-gər yağsa fələkdən
 başıma daşlar,
Binasın tişeyi-ahimlə viran etdiyimdəndir.

Bu, klassik mübaliğənin ən kamil poetik formasıdır. Şair deyir: "Mən məşuqənin, gözəllik əlindən ahü-fəqan etdiyimə görə dünyanın insanları kədərli, pərişandır. Mən özüm isə xalqı pərişan etdiyimə görə pərişanam. Əgər fələkdən başıma daşlar yağırsa bu səbəbsiz deyil. Çünki mən öz ahımın tişəsi ilə fələyin binasını viran etmişəm, uçurub dağıtmışam".

Füzuli özünü qəm diyarının sakini hesab edir. Və bu qəm diyarında onun qəmini almaq üçün onu eşq zövqündən xilas etmək istəyən dostuna deyir ki, mənə nəsihət etmə, "Mən ki tiryakimizacam, zəhr kar etməz mana". Məsələ burasındadır ki, qəm onun varlığını yoxa çevirib:

Qəm diyarında əcəl peyki güzar
 etməz mana,
Yox sanıb varım məgər kim, etibar
 etməz mana.

Füzulidə həm hüsnün, həm eşqin, həm də qəmin əlindən qurtulmağın bir yolu var ki, o da ölmək, yəni hüsnün, eşqin və qəmin verdiyi ali zövq və vəcdlə haqqa qovuşmaqdır. Misal verdiyimiz beytdə isə şair deyir ki, qəm diyarında, yəni real dünyada əcəl peyki - Əzrayil mənə yaxın gəlmir, qəmim o qədər çoxdur ki, o məni görmür.

"Füzulidə eşq" yazısında qeyd etdik ki, Füzulidə eşqin dərmanı yoxdur - yeganə dərman eşqə can verməkdir; həm həqiqi, həm də məcazi mənada. Dahi şair qəmin də dərmanını məhz can verməkdə görür. Qəzəllərindən birində şair deyir ki, məlamət oduna yandın, çıx bu aləmdən "Tərəhhüm qıl, rəva görmə ki, aləm oduna yanə". Aləmi özünün qəm tonqalında yandırmaq Füzulinin cəsarəti, sevgilisinə (və sevgisinə) sədaqət rəmzidir.

Füzuli vəfalı aşiq olduğu kimi, həm də vəfalı bir qəmkeşdir. Onun üçün dünyadan əldə etdiyi ən şirin nemət kimi qəmə sədaqət, həm də (və məhz!) sevgiliyə sədaqətdir:

Yar qılmazsa mənə cövrü cəfadan qeyri,
Mən ona eyləməzəm mehrü vəfadan qeyri.

Mətn aydındır: yarın aşiqə etdiyi cəfanın, zülmün və əziyyətin əvəzinə sədaqətli, vəfalı aşiq ona yalnız vəfalı bir mehribançılıq edə bilər. Bəlkə elə ona görə də sədaqətli, dəyanətli, eşq ağrısını səadət kimi yaşayan aşiq öz sevgilisinə deyir:

Mərhəm qoyub önərmə sinəmdə
 qanlı dağı,
Söndürmə öz əlinlə yandırdığın çırağı.

Sinəmə çəkdiyin qanlı dağı dərman qoyub sağaltma. Çünki bu sənin özünün yandırdığı çıraqdır, onu söndürmə. Füzulinin eşqdən od tutub yanan qəlbinin dərd və qəmini görənlər deyirlər ki, səbr eylə. Füzuli də soruşur: "Söylə bu mərhəm ilə kimin bitdi yarəsi?"

Səbr eşq dərdinin dərmanı deyil. Füzuli qəminin şairin əzabını artıran bir cəhəti də ondadır ki, onun ahü-fəqanı sevgilisinə heç cür əsər etmir, o heç ona üzünü də göstərmir:

Məhşər günü görüm,
 derəm ol sərvqaməti,
Gər onda həm görünməsə,
 gəl gör qiyaməti.

Şairin təsvir etdiyi gözəllər olduqca rəhmsiz və amansızdır. Onun qəmi, ah və əfqanı onlara təsir etmir və şair ümidini məşhər gününə bağlayır. Axı Allah üzünü heç kimə göstərmir, onun hüsnünün necə olduğunu heç kəs bilmir. Və Allahı sevib onun qəmi ilə yaşayan yalnız axirət gününə ümid bağlaya bilər. Onda da yalnız mərhəmət görə bilər. Axı Allahın mərhəməti onun bəşəriyyətə olan sevgisidir:

Şükr et, Füzuli, qılma fəqan yar qılsa cövr,
Kim, əhli-eşqə cövrüdür anın inayəti.

Füzulinin qəmi böyük fəlsəfi məna kəsb edir. O təkcə öz qəmindən əzab çəkmir, zəmanəsini qəm dəryasına qərq olmuş görür. Ona görə də şair özünü dünyanın qəm karvanının sarvanı - başçısı, yolgöstərəni hesab edirdi:

Mənəm ki, qafiləsalari-karivani qəməm,
Müsafiri-rəhi-səhrayi-möhnətü ələməm.

Füzulinin müasirləri də əslində dərd, qəm içində yaşayanlardır. Dərd, qəm, ah, nalə bu dövranın öz insanlarına bəxş etdiyi əsas qazancdır. Bəzi beytlərə nəzər salaq:

Dust bipərva, fələk birəhm,
 dövran bisükun,
Dərd çox, həmdərd yox, düşmən qəvi,
 tale zəbun...
Qəm günü həmdərdlərim qərq oldular
 göz yaşına,
Silməyə göz yaşımı bir qəmküsarım
 qalmadı...
Vəfa hər kimsədən kim, istədim,
ondan cəfa gördüm,
Kimi kim, bivəfa dünyada gördüm,
bivəfa gördüm...
Tökdükcə qanımı oxun, ol asitan içər,
Bir yerdəyəm əsir ki, torpağı qan içər.

Əksər füzulişünaslar bu tipli beytləri misal gətirərək şairin öz zəmanəsindən narazılığının ifadəsi kimi izah etmişlər. Halbuki, belə beytlərin bir çox məna qatı var. Məsələn, Füzuli əksər qəzəllərində deyir ki, eşq dərdinin dərmanı yoxdur və bu dərdə dərman istəyən artıq aşiq - haqq aşiqi deyil.

Kimə kim, dərdimi izhar qıldım
 istəyib dərman
Özümdən həm betər bir dərdə
 onu mübtəla gördüm.

Bu beytin birinci misrasını hərfi mənada yox mənası ikinci misrada açılan rəmzi mənada qəbul etmək olar: dərman istədiyim adam mənə ancaq dərd verə bilər, dərdin dərmanı elə dərd çəkməkdir.

Füzulidə qəmin təzahür forması "qan ilə dolmuş könül"dür. Onu da aşiqin göz yaşları biruzə verir. "Əşkdir xali qılan qan ilə dolmuş könlümü" - qanla dolmuş könlümü göz yaşlarım boşaldır, göz yaşlarım könül qanımın damlalarıdır.

Füzulidə qəm tənha aşiqin yeganə həmdərdidir. O öz qəmi ilə baş-başa verir:

Aləm oldu şad səndən,
 mən əsiri-qəm hənuz,
Aləm etdi tərki-qəm,
 məndə qəmi-aləm hənuz.

Aləm tanrının sayəsində şad olur, aşiq qəmin əsiridir, aləm qəmi tərk edir, aşiq aləmin qəmini canına çəkir, qəlbini dünya qəmi ilə doldurur. Qəm və tənhalıq aşiqin ən sədaqətli yoldaşlarıdır:

Nə yanar kimsə mənə atəşi-dildən özgə,
Nə açar kimsə qapım badi-səbadan qeyri.

Bizcə bu mənzərə, bu psixoloji ovqat Füzulinin qəhrəmanının ovqatını çox dolğun və mənalı əks etdirir. Bütün haqq aşiqləri də sufilər kimi tənhalıq aləmində yaşamışlar. Tənhalıqda insan Allaha daha yaxın olur.

Ümumiyyətlə, sufi poeziyada, o cümlədən Füzulidə eşq Allahın insan varlığında fəal təzahür şəklidir. Qəm isə bu eşqdən dolayısı, yəni Allaha qovuşa bilməyən, vüsət həsrəti ilə qovrulan aşiqin dərdinin ifadəsidir.

Füzulidə qəm mənəvi yaşantı formasıdır. Ona görə də hüsndən başlanan, eşqdə billurlaşan qəm mənəvi kamilliyin ifadəsidir. Qəmin böyüklüyü mənəvi kamilliyin dərəcəsini əks etdirir. Üç beytə nəzər salaq:

Dəhənin dərdimə dərman

dedilər cananın,
Bildilər dərdimi yoxdur dedilər,
dərmanın...
Ey Füzuli, eylə kim, bimari-dərdi-eşqsən,
Yoxdurur ölməkdən özgə hiç
dərmanın sənin...
Ey Füzuli, axıdıb seyli-sirişk ağlayalı,
Eşq əhlinə fəğan etməyi qanun etdin.

Müxtəlif qəzəllərdən verilən bu beytlər şairin mənəvi yaşantılarını əks etdirmək baxımından bir-birini tamamlayır. Füzulinin dərdi elə bir dərddir ki, heç cananın busəsi də onu sağalda, ona dərman ola bilməz. Bu "bimari-dərdi-eşqdir" çarəsi ölməkdir, ona görə də Füzuli ağlaya-ağlaya fəqan etməyi eşq əhli üçün qanuna çevirir.

Lövhi aləmdən yudum əşk ilə
Məcnun adını,
Ey Füzuli mən dəxi aləmdə
bir ad eylərəm.

Mən elə bir aşiqi-qəməm ki, göz yaşlarımla aləm lövhəsindən Məcnun adını silib, yeni bir ad yazaram - Füzuli adını!

Füzuli qəmə, dərdə, əfqanına, ürək qanı olan göz yaşlarına əlac diləmir. Sadəcə bu qəmin özünün taleyini sual edir. İçindəki qəmin can olduğunu, can çıxanda qəm də çıxacağını bilir.

Məni candan usandırdı,
cəfadan yar usanmazmı?
Fələklər yandı ahimdən,
muradım şəmi yanmazmı?
Qəmim pünhan tutardım mən,
dedilər yarə qıl rövşən
Desəm ol bivəfa bilmən,
inanarmı, inanmazmı?
Şəbi-hicran yanar canım,
tökər qan çeşmi-giryanım
Oyadar xəlqi əfqanım,
qara bəxtim oyanmazmı?

Füzulinin poeziyasında hüsn, eşq və qəm vəhdətindən yaranmış estetik konsepsiya, şairin bu suallarına "Yox!" cavabı verməyi tələb edir. Əgər yar cəfadan usansaydı, demək, o, Leyli olmazdı. Bir də ki, cəfa verən yar deyil, onun misilsiz hüsnüdür. Aşiqin ahı fələkləri yandırsa da, onun muradının şəmini yandıra bilməz, çünki onun muradı Tanrıya qovuşmaqdır, onun çırağı Allah əlindədir. O bivəfa aşiqin qəm çəkdiyinə inanmaz, çünki sevən aşiq üçün bu qəm ən böyük həzzdir, o qəmi eşq kimi qəbul edər. Xəlqə rüsvay olmaq aşiq üçün bir şərəfdir və əlbəttə aşiq onu rindü şeydaya çevirmiş eşqdən usanmaz. Əgər usansaydı, belə deməzdi:

Olduqca mən, götürmə bəladan iradətim.
Mən istərəm bəlanı, çü istər bəla məni!
Getdikcə hüsnün eylə ziyadə nigarımın,
Gəldikcə dərdinə betər et mübtəla məni!
Yaxud digər qəzəldən iki beyt:
Oxun gəldikcə çeşmim töksə
bağrım qanın, ondadır
Ki, bağrım qanına yer qalmadı
sinəmdə peykandan.
Sitəm daşı, məlamət xəncəri,
bidad şəmşiri,
Füzuli, hər cəfa kim gəlsə xoşdur

canə canandan.

Füzulidəki qəm onun füsunkar poeziyasından süzülüb gəlir. Təkcə qəmmi?! Füzulinin təsvir etdiyi hüsnün, tərənnüm etdiyi eşqin, tədqiq etdiyi qəmin yuvası onun lirikası, heç kimə bənzəməyən poetik sözüdür. Beş yüz ildir ki, bu üç rükn - Hüsn, Eşq və Qəm çiyin-çiyinə verib, Füzuli poeziyasını dünya poeziyasının zirvəsində saxlayır. Beş yüz ildir ki, bəşər o hüsnün əlçatmazlığına, o eşqin dərinliyinə, o qəmin böyüklüyünə həsrətlə can atır. Beş yüz ildir ki, dünya Füzulini qocaltmağa çalışır ki, onunla yaşıd olsun, onunla bir sırada dayansın:

Dünya səni qocaltdı, yaşıdın olsun deyə,
Gömüldü dərdin yerə, ucaldı ahın göyə.
Dərdə şərik - dərd özü, sükut –
suala cavab
Qranit dağlar belə, gətirməzdi buna tab.
Füzuli, o nə dövran!...
Görsələr yanır insan,
Yanana od verdilər.
Füzuli, o nə kədər!
Görsələr donur insan,
Donana buz verdilər...

(Əli Kərim, "Füzuli")

Dünya Füzuliyə nə qədər dərd, qəm verdisə də, onu qocalda bilmədi. Məhz bu nurlu kədərin, qəmin işığında Tanrı dərgahına qovuşmuş şair dünya qocaldıqca təzələnməkdə, cavanlaşmaqdadır. Onun şeirindən qopan Ah beş yüz ildir ki, bütün zamanların fələklərini yandıra-yandıra Füzuli poeziyasının gələcəyə gedən yollarına sönməyən əbədiyyət işığı salır.